

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 256 (21.408)

*29 dekabr 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin "Elmlər Akademiyası" stansiyasının ikinci çıxışının açılışında iştirak edib.

Dövlətimizin başçısı yeni çıxışın rəmzi açılışını bildirən lenti kəsdi.

Baş nazirin müavini Abid Şərifov və "Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynov görülən işlərlə bağlı Prezident İlham Əliyevə ətraflı məlumat verdilər. Qeyd edildi ki, "Nizami-Memar Əcəmi" buraxılış kompleksinə daxil olan "Elmlər Akademiyası" stansiyası bir çıxışla 1985-ci ildə istismara verilib. "Elmlər Akademiyası" stansiyasının ikinci çıxışı layihəyə əsasən, dörd çıxışlı yeraltı vestibüldən, 70,4 metr uzunluğunda maili tuneldən, 37 metr piyada və 26 metr uzunluqlarında keçid tunellərindən və yarımstansiyadan ibarətdir. Kompleksin ümumi sahəsi 4,3 min kvadratmetrdir. Stansiyanın ikinci çıxışında 7 müasir eskalator, piyada tunelində təhlükəsizlik kameraları quraşdırılıb. Kassa otaqlarında və digər yardımçı sahələrdə də işçilərin fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Dövlətimizin başçısı "Elmlər Akademiyası" stansiyasının planına və görülən işləri əks etdirən fotostendə baxdı.

"Elmlər Akademiyası" stansiyasının yeni giriş-çıxışlarının üzərində müasir dekorativ-memarlıq elementli konstruksiya quraşdırılıb, ərazidə yerüstü abadlaşdırma işləri həyata keçirilib.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Dekabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası Qars Vilayətinin valisi Günay Özdəmir, Ərdahan Vilayətinin valisi Əhmət Dəniz və İqdır Vilayətinin valisi Davut Haner ilə görüşmüşdür.

Qonaqları qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edən Ali Məclisin Sədri onları Naxçıvanda görməkdən məmnunluğunu bildirmişdir. Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın vilayətləri arasında elm, təhsil, mədəniyyət və iqtisadi sahədə əlaqələrin yaxşı nəticələri olduğunu qeyd etmişdir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Ali Məclisin Sədrinə təbrikləri çatdıran İqdır Vilayətinin valisi Davut Haner Naxçıvanın inkişafının onlarda xoş təəssürat yaratdığını diqqətə çatdırmış, əlaqələrin müxtəlif sahələr üzrə davam etdiriləcəyini bildirmişdir.

Söhbət zamanı gələcək əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Nihat Ərşən görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində yeni yaşayış binası istifadəyə verilmişdir





Muxtar respublikada sakinlərin mənzil şəraitinin yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Hər il Naxçıvan şəhərində və rayon mərkəzlərində yeni yaşayış binaları tikilir, mövcud yaşayış binalarında yenidənqurma işləri aparılır. İnsanların rahat yaşayışına xidmət edən bu tədbirlər 2015-ci ildə də davam etdirilmişdir.

Dekabrın 28-də Naxçıvan şəhərinin Atatürk küçəsində yeni yaşayış binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək demişdir ki, "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a uyğun olaraq Naxçıvan şəhərində ictimai yaşayış binalarının tikintisi və yenidən qurulması istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir. 2015-ci ildə Naxçıvan şəhərində 3 yaşayış binası istifadəyə verilmiş, 9 ictimai yaşayış binası yenidən qurulmuşdur. Hazırda şəhərin Heydər Əliyev prospektində, İdris Məmmədov, Əliqulu Qəmküsar küçələrində ictimai yaşayış binalarının, Əziz Əliyev küçəsində yaşayış kompleksinin tikintisi, bir binada isə yenidənqurma işləri davam etdirilir.

Bina sakinləri adından Emin Hacıyev minnətdarlıq edərək demişdir ki, Naxçıvan şəhərində aparılan quruculuq işləri hər bir sakinin həyatında hiss olunur. Əvvəllər lazımi məişət şəraiti olmayan binada yaşayırdıq. Bu gün isə ailələrimiz müasir mənzillərlə təmin olunmuşdur. Bütün bunlar ölkəmizdə insan amilinə verilən qiymətin ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində müasir tələblərə cavab verən 56 mənzilli yeni yaşayış binasının istifadəyə verildiyini bildirmiş, binada yeni mənzillə təmin olunan 28 ailəni təbrik edərək demişdir: Bu gün ölkəmizdə bütün sahələrin inkişafı üzrə dövlət proqramları həyata keçirilir. Yaşayış binalarının tikintisi və yenidən qurulması, müasir yaşayış komplekslərinin salınması, qayğıya ehtiyacı olan vətəndaşların mənzillərlə təmin olunması Azərbaycan dövlətinin həyata keçirdiyi sosial tədbirlərin mərkəzində dayanır. Naxçıvan şəhərində də yeni yaşayış binaları tikilir, mövcud binalarda yenidənqurma işləri aparılır. Bu gün açılışı olan bina ötən əsrin 60-cı illərində istifadəyə verilən yaşayış binasının yerində inşa olunmuşdur. İstismar müddəti başa çatan, qəzalı vəziyyətdə olan əvvəlki binada lazımi məişət şəraiti də yox idi. Ona görə də ərazidə müasir tələblərə uyğun yeni yaşayış binası tikilmiş, sakinlərin rahat yaşayışı təmin edilmişdir.

Ali Məclisin Sədri demişdir: Ölkəmizdə insanların mənzil şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər üç mərhələdə aparılır. İlk növbədə qayğıya ehtiyacı olan vətəndaşlar mənzil və fərdi yaşayış evləri ilə təmin olunur. İkinci mərhələdə mövcud yaşayış binaları yenidən qurularaq sakinlərin istifadəsinə verilir. Üçüncü mərhələdə isə qəzalı vəziyyətdə olan yaşayış binaları sökülərək yerində daha müasir yaşayış binaları tikilir. Həyata keçirilən bu tədbirlər Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsi olmaqla yanaşı, həm də ölkəmizdə ulu öndər Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsi və bu siyasətə sədaqətin nəticəsidir.

Qeyd olunmuşdur ki, bu gün muxtar respublikanın yaşayış məntəqələrində bütün kateqoriyadan olan insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Hər il yeni əsgəri-məişət kompleksləri və zabit ailələri üçün yaşayış binaları tikilir, qayğıya ehtiyacı olan insanlar fərdi yaşayış evləri və mənzillərlə təmin olunur, müasir ictimai yaşayış binaları

*Ardı 2-ci səhifədə*

istifadəyə verilir. Bu da qarşıya mühüm vəzifələr qoyur. Belə ki, hər bir vətəndaş həyata keçirilən quruculuq işlərinin iştirakçısına çevrilməli, sabitliyin qorunmasında və ölkəmizin inkişafında öz xidmətlərini göstərməlidir. Çünki ölkəmiz inkişaf etdikcə, insanların rahat yaşayışının təmin olunması sahəsində görülən işlər də davam etdiriləcəkdir.

Ali Məclisin Sədri yaşayış binasının Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində istifadəyə verildiyini bildirmiş, bu münasibətlə sakinləri təbrik etmiş, onlara yeni mənzillərində firavan həyat arzulamışdır.

Sonra Ali Məclisin Sədri mənzillərin orderlərini təqdim etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 9 mərtəbədən ibarət olan binadakı mənzillərin 28-i üçotaqlı, 28-i isə dördotaqlıdır. Üçotaqlı mənzillər 105, dördotaqlı mənzillər isə 130 və 150 kvadratmetrdir. 2 girişi olan binada lift quraşdırılmış, mənzillərə optik xətt çəkilmiş, birinci mərtəbədə hər birinin sahəsi 568 kvadratmetr olan 2 mağaza, zirzəmidə isə Naxçıvan şəhərində yaşayan rəssamlar üçün 15 emalatxana istifadəyə verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələrində 2015-ci ilin yekunu və 2016-cı ildə qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilmişdir

*Dekabrın 28-də Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələrində 2015-ci ilin yekunu və 2016-cı ildə qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov tədbirdə çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə müşahidə olunan davamlı inkişaf və yeniləşmə kütləvi informasiya vasitələrini də əhatə etmiş, jurnalistlərin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmışdır. Teleradio və qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin sərbəst fəaliyyətinin təmin olunması sahəsində həyata keçirilən tədbirlər 2015-ci ildə də davam etdirilmişdir. Bu il Azərbaycan milli mətbuatının 140 illik yubileyi ilə bağlı muxtar respublikada geniş tədbirlər keçirilmiş, jurnalistlər mükafatlandırılmış, fəxri adlara layiq görülmüşlər. 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq məsələləri ilə bağlı verdiyi tapşırıqların İcra Planı" çərçivəsində Naxçıvan Dövlət Televiziyası və Radiosunun maddi-texniki imkanları daha da gücləndirilmişdir. Bu dövrdə "Kanal 35" televiziyasının, "Naxçıvanın səsi" radiosunun, "Şərq qapısı", şəhər və rayon qəzetlərinin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması istiqamətində də bir sıra tədbirlər həyata keçirilmiş, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yeni çap avadanlıqları quraşdırılmışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli, "Şərq qapısı" qəzetinin baş redaktoru Tural Səfərov, Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov və Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Fərasət Əsədullasoy aidiyyəti üzrə məlumat vermişlər.

Ali Məclis Sədrinin birinci müavini kütləvi informasiya vasitələrində yol verilən nöqsanları diqqətə çatdırmış və gələcək fəaliyyətlə bağlı tapşırıqlar verərək demişdir: Bu gün muxtar respublikada yaradıcı insanların, eləcə də jurnalistlərin sərbəst fəaliyyət göstərməsi üçün hər cür şərait vardır. Lakin bəzi hallarda kütləvi informasiya vasitələri yaradılan şəraitdən səmərəli istifadə etmir, nöqsanlara yol verirlər. Muxtar respublikanın kütləvi informasiya vasitələrinin 2015-ci il üçün tədbirlər planı vaxtlı-vaxtında icra olunmamışdır. Ona görə də kütləvi informasiya vasitələri tədbirlər planlarında nəzərdə tutulan vəzifələrin icrasını nəzarətdə saxlamalı, kollektivlər Ali Məclis Sədrinin qəbul etdiyi normativ-hüquqi aktların, sessiya və müşavirələrdə verilən tapşırıqların icrasına diqqəti artırmalı, işdə ciddi dönüşə nail olunmalıdır. Qədim diyarda baş verən yeniliklər, aparılan genişmiqyaslı quruculuq tədbirləri teleradio və qəzetlərdə ətraflı işıqlandırılmalı, milli dəyərlərimiz, adət-ənənələrimiz və xalq yaradıcılığı sahələri ilə bağlı silsilə materiallar hazırlanmalıdır.

Qeyd olunmuşdur ki, dövlət televiziyası və radiosunda müasir avadanlıqların imkanlarından səmərəli istifadə olunmur, rejissor, operator və montaj işinin düzgün qurulmaması səhvlərin buraxılmasına səbəb olur, bəzi hallarda tele-materiallar efir tələblərinə uyğun hazırlanmır. Ona görə də Naxçıvan Dövlət Teleradiosu öz fəaliyyətini qabaqcıl media standartlarına çatdırmalı, tamaşaçı və dinləyicilərə keyfiyyətli verilişlər təqdim olunmalıdır. Jurnalistlər gündəlik mütaliəni artırmalı, hər hansı mövzu üzrə material hazırlanarkən geniş tədqiqat aparılmalı, bədii şuranın fəaliyyəti gücləndirilməli, tamaşaçı və dinləyici tələbi ödənilməlidir.

"Şərq qapısı" qəzetində kənar müəlliflərlə əlaqələr davamlı xarakter almamış, qəzet səhifələrində ictimai əhəmiyyəti olmayan məqalələrə üstünlük verilmiş, gənc kadrların seçilib işə cəlb olunması sahəsində iş zəif qurulmuşdur. "Şərq qapısı" qəzeti muxtar respublikanın əsas mətbuat orqanı kimi fəaliyyətini gücləndirməli, aparılan quruculuq işləri qəzetin səhifələrində dolğun əksini tapmalı, mövzu seçimi, redaktə, korrektura və tərtibat işi canlandırılmalıdır. Jurnalistlər şablonçuluqdan uzaq olmalı, tarix, mədəniyyət, milli dəyərlər, vətənpərvərlik mövzularına mütəmadi müraciət edilməli, oxucu tələbini ödəyən yazılar hazırlanmalıdır.

Şəhər və rayon qəzetlərində redaktənin düzgün aparılmaması, mövzu seçimi və yaradıcılıq axtarışının olmaması əsas nöqsanlardandır. Qəzet redaksiyalarının hər biri müasir fotoaparatlarla təchiz olunsa da, fotomüxbirlərin fəaliyyəti hiss olunmur. 2016-cı ildə qəzetlərdə keyfiyyət dəyişikliyi təmin edilməli, fotomüxbirlərlə iş gücləndirilməli, yeni əməkdaşlar işə cəlb olunmalı, kurslar təşkil edilməlidir. "Kanal 35" televiziyasında verilişlər qeyri-peşəkar hazırlanır. Proqram tərtibatında və mövzu seçimində pərakəndəlik vardır. "Naxçıvanın səsi" radiosunun efirində isə ünvansız verilişlər səsləndirilir, müraciət olunan mövzular tam açılmır. Müxtəlif adlarla təqdim olunan eyni məzmunlu verilişlər çoxluq təşkil edir. "Kanal 35" televiziyasının və "Naxçıvanın səsi" radiosunun əməkdaşları işə ciddi yanaşmalı, veriliş və proqramların keyfiyyəti yüksəldilməli, tamaşaçı və dinləyici auditoriyasının informasiyaya artan tələbatı dolğun şəkildə ödənilməlidir. Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası və Naxçıvan Mətbuat Şurasının üzvləri teleradiolarda və qəzetlərdə təqdim olunan materialların keyfiyyətinə, yayım cədvəllərinə və proqram siyasətinə nəzarəti artırmalıdırlar. Bu gün muxtar respublikada hər bir təşkilatın qarşısında nizam-intizama əməl etmək əsas vəzifə kimi müəyyənləşdirilmişdir. Kütləvi informasiya vasitələrinin əməkdaşları da nizam-intizama ciddi əməl etməli, iş və əmək intizamı diqqət mərkəzində saxlanılmalıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kütləvi informasiya orqanları əməkdaşları qarşısında konkret vəzifələr qoyaraq demişdir: ***"Hər bir kütləvi informasiya vasitəsi bugünkü həyatımızın salnaməçisinə çevrilməlidir. Mətbuat işçiləri tarixi-mədəni irsimizin, milli dəyərlərimizin təbliğatçısı olmalı, maarifçilik işi gücləndirilməlidir. Qəzet səhifələrində gənc nəslin milli mənlik şüurunun inkişafına xidmət edən yazılara üstünlük verilməlidir. "Əkinçi" qəzetinin əsas prinsipləri olan maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği və hadisələrin obyektiv işıqlandırılması bu gün də rəhbər tutulmalı, mətbuat vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak etməlidir".***

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

2015-ci ilin dekabr ayı ərzində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 dekabr tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçusunun attestasiyasının keçirilməsi Qaydaları" təsdiq edilmişdir. Qaydalara əsasən, inzibati və yardımçı vəzifələri tutan hər bir dövlət qulluqçusu, qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa, 5 (beş) ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilir. Tutduğu vəzifədə 1 (bir) ildən az qulluq keçən, habelə staj və sınaq müddətində olan dövlət qulluqçuları növbəti attestasiyadan keçirilmirlər.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 22 dekabr tarixli qərarı ilə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli qərarında da dəyişiklik edilmişdir.

Qəbul edilən normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində (***www.huquqiaktlar.nakhchivan.az***) tanış olmaq mümkündür.

## Muzeylər ziyarət edilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi davam edir.*

Dekabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyində olmuşlar.

Məlumat verilmişdir ki, Azərbaycanın görkəmli dramaturqu və nasiri Cəlil Məmmədquluzadənin xatirəsini əbədiləşdirmək üçün onun doğulduğu Naxçıvan şəhərində ev-muzeyinin yaradılması haqqında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1998-ci il 19 iyun tarixli Sərəncam imzalamışdır. Muzeydə Cəlil Məmmədquluzadənin özünə və ailə üzvlərinə həsr olunmuş rəsm əsərləri, dövrə məxsus məişət əşyaları, edibin qızı Münəvvər xanıma məxsus piano, hekayələri əsasında hazırlanmış panoramlar və maketlər nümayiş etdirilir. 1882 ədəd eksponatı özündə cəmləşdirən muzeyin ekspozisiyasında hazırda 273 ədəd eksponat nümayiş olunur.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Cəlil Məmmədquluzadənin ev-muzeyində olmuşlar.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Daxili İşlər Nazirliyinin kollektivləri Hüseyn Cavidin ev-muzeyini, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Xatirə Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları isə Bəhruz Kəngərli Muzeyini ziyarət etmişlər.

**Səbuhi HÜSEYNOV**

## Daxili İşlər Nazirliyində kollegiya iclası keçirilib



*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində keçirilən kollegiya iclasında Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov "2015-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin nəticələri və qarşıda duran vəzifələr" mövzusunda məruzə edib.*

Qeyd olunub ki, müasir texniki vasitələrdən geniş istifadə edilməsi profilaktik işin effektivliyini daha da artırıb. Xidməti istifadə üçün "Təhlükəsiz şəhər" layihəsi çərçivəsində Naxçıvan şəhəri üzrə 169 kamera quraşdırılıb, hesabat dövründə bu sistem vasitəsilə 222 hadisə aşkarlanıb, Vahid Məlumat Axtarış Sistemi vasitəsilə 36 minə yaxın sorğu cavablandırılıb. Bütövlükdə, müxtəlif inzibati xətalara görə muxtar respublika üzrə 25454 protokol tərtib olunub və qanunauyğun tədbir görülüb.

Cinayətkarlıqla mübarizənin nəticəsinə görə, əvvəlki illərin müsbət nəticələri qorunub saxlanılıb, 2015-ci ildə daxili işlər və prokurorluq orqanları üzrə cəmi 18 cinayət hadisəsi qeydə alınıb. Yüksək peşəkarlıqla həyata keçirilən əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri nəticəsində cinayətlərin açılması uçot subyektləri üzrə 95,8 faiz təmin edilib.

Vurğulanıb ki, fevralın 9-da Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə Ali Məclisin Sədri tərəfindən verilən tapşırığa uyğun olaraq, mart ayından etibarən vətəndaşlara səyyar xidmət göstərilməsinə başlanılıb, səyyar xidmət lazım olan bütün texniki və xüsusi vasitələr, informasiya avadanlıqları ilə təchiz olunub. Bu müddət ərzində 6320 müraciət qəbul olunaraq icra edilib.

Muxtar respublika daxili işlər orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl işlər görülüb, xeyli sayda nəqliyyat vasitəsi, o cümlədən 10 ədəd BMV markalı motosiklet alınaraq müvafiq xidmətlərdə istifadə olunur.

Avtomobillərin texniki baxışdan keçirilməsi işini asanlaşdırmaq üçün Culfa və Ordubad rayonları ərazisində Dövlət Yol Polisi İdarəsinin yeni texniki müayinə mərkəzləri tikilərək istifadəyə verilib. Bu müayinə mərkəzlərində il ərzində, təxminən, 20 min avtomobilin texniki baxışdan keçirilməsi mümkündür.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasından sonra mükafatlandırma mərasimi keçirilib.

Daxili İşlər Nazirliyinin və Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının bir qrup əməkdaşına xidməti vəzifələrinin öhdəsindən layiqincə gəldiklərinə, cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və təhlükəsizliyin təmin olunmasında fərqləndiklərinə görə fəxri fərman, "Əla xidmətlərə görə" döş nişanı və hədiyyələr verilib.

**Muxtar MƏMMƏDOV**

# 2015-ci ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.*

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov tədbiri giriş sözü ilə açaraq məruzə edib. Məruzəçi ötən il gömrük orqanları qarşısına qoyulan vəzifələrin icrasının təmin olunmasının Naxçıvanın sosial-iqtisadi inkişaf dinamikasının qorunmasına mühüm töhfələr verdiyini vurğulayıb.

Qeyd olunub ki, 2015-ci ildə muxtar respublika gömrük orqanları dövlət büdcəsinin formalaşdırılması məqsədilə qarşısına qoyulan tapşırığın öhdəsindən gəlib, büdcənin formalaşdırılması üçün müəyyən olunan 7 milyon manat proqnoza qarşı 8 milyon 656 min manat vəsait toplanaraq təyinatı üzrə köçürülüb, proqnoz-tapşırıq 124 faiz yerinə yetirilib. Gömrük ödənişlərinin 57 faizi avtonəqliyyat vasitələrinin, 43 faizi isə digər malların rəsmiləşdirilməsi hesabına əldə olunub. Gömrük rüsumu və vergilərin bank, POS-terminal və ya internet üzərindən elektron qaydada ödənilməsi təmin edilib. 2015-ci ildə tabeli gömrük orqanlarının maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması ilə yanaşı, 17 sahibkarlıq subyektinin ümumi gömrük auditi aparılıb və ümumilikdə, 27 min 291 manat vəsaitin yenidən dövlət büdcəsinə ödənilməsi təmin edilib. Gömrük sərhəd-buraxılış məntəqələrindən keçən xarici avtonəqliyyat vasitələrindən il ərzində 170 min 531 manat sığortahaqqı, Azərbaycan Respublikasının minik avtonəqliyyat vasitələrindən 115 min 344 manat keçid haqqı toplanaraq müvafiq hesablara köçürülüb. Bu dövrdə 54 xarici dövlətlə ticarət əməliyyatları aparılıb, muxtar respublikanın xarici ticarət dövriyyəsi 502 milyon 567 min ABŞ dolları olub. Bu il də ixracın həcmi idxalı üstələyib, xarici ticarət dövriyyəsinin 82 faizi ixrac, 18 faizi isə idxal əməliyyatlarının payına düşüb. İdxal-ixrac əməliyyatları üzrə yaranmış müsbət saldo 323 milyon 273 min ABŞ dolları olub. 2014-cü illə müqayisədə ixracın həcmi 1 faiz artıb, idxalın həcmi isə 17,6 faiz azalıb. İxracın 77 faizini sənaye, 23 faizini kənd təsərrüfatı məhsulları, idxalın 60,4 faizini sənaye məhsulları, 15,6 faizini nəqliyyat vasitələri və onların hissələri, 7,5 faizini ərzaq məhsulları, 0,6 faizini tikinti materialları, 15,9 faizini isə digər mallar təşkil edib.

Sonra komitənin Audit şöbəsinin rəisi, gömrük xidməti polkovniki Tofiq Hüseynovun 2015-ci ildə aparılmış audit yoxlamalarının nəticələri ilə bağlı çıxışı olub, tabeli gömrük orqanlarının rəisləri idarələrin illik fəaliyyəti ilə bağlı məlumat veriblər.

* * *

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində də ötən ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.***



Kollegiya iclasında Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Xalid İsgəndərov bildirib ki, 2015-ci ilin ötən dövrü ərzində muxtar respublikanın iqtisadiyyatında qazanılan uğurlar dövlət büdcəsinin gəlirlərinə də öz təsirini göstərib. Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə 2015-ci ilin ötən dövründə bütün mənbələr hesabına 63 milyon 125 min manat proqnoza qarşı 67 milyon 693 min 241 manat vəsait daxil olub. Bu, nəzərdə tutulan məbləğdən 4 milyon 568 min 241 manat çoxdur. Bu ilin ötən dövründə büdcə daxilolmalarının 85,2 faizi Vergilər Nazirliyi, 12,2 faizi Dövlət Gömrük Komitəsi tərəfindən, 2,6 faizi büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar vasitəsilə təmin edilib. Dövlət büdcəsinə muxtar respublika Vergilər Nazirliyi tərəfindən 54 milyon 900 min manat proqnoza qarşı 57 milyon 712 min 211 manat vəsait daxil olub ki, bu da nəzərdə tutulan məbləğdən 2 milyon 812 min 211 manat çoxdur. Bəhs edilən dövrdə Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə 6 milyon 405 min manat proqnoza qarşı 8 milyon 228 min 975 manat vəsait daxil olub. Bu da nəzərdə tutulan məbləğdən 1 milyon 823 min 975 manat çoxdur. Büdcə təşkilatlarının ödənişli xidmətlərindən 1 milyon 741 min 615 manat, digər daxilolmalardan isə dövlət büdcəsinə 10 min 440 manat vəsait daxil olub. 2015-ci ilin ötən dövründə muxtar respublikada fəaliyyət göstərən mənzil-kommunal strukturları tərəfindən 1 milyon 910 min 280 manat proqnoza qarşı 1 milyon 925 min 843 manat vəsait daxil olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 98 min 731 manat və ya 5,4 faiz artıq vəsait toplanıb. 2015-ci ildə Maliyyə Nazirliyi tərəfindən aparılan təftiş və yoxlamalarda aşkara çıxarılan nöqsanların aradan qaldırılması üçün bir sıra tədbirlər həyata keçirilib, cəmi 100 min 832 manat məbləğində qanunsuz sərf olunmuş vəsaitin 60 min 499 manatı dövlət büdcəsinə bərpa edilib. Hazırda 40 min 333 manat vəsaitin dövlət büdcəsinə bərpası istiqamətində işlər aparılır.

Bildirilib ki, 2016-cı il üçün Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsinin gəlirləri 69 milyon manat məbləğində proqnozlaşdırılıb. Gələn ilin dövlət büdcəsinin xərcləri 351 milyon 350 min manat müəyyənləşdirilib. Qarşıdakı ilin dövlət büdcəsinin xərclərinin 82,6 faizi və ya 290 milyon 300 min 173 manatının cari xərclərə, 17,4 faizi və ya 61 milyon 49 min 827 manatının əsaslı xərclərə yönəldilməsi müəyyənləşdirilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Muxtar respublikamızda keyfiyyət infrastrukturunun inkişaf etdirilməsi, əhalinin sağlamlığının qorunması, məhsul, iş və xidmətlərin təhlükəsizliyinin təmin edilməsi və keyfiyyətinin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qarşısında mühüm vəzifələr durur və beynəlxalq norma və prinsiplərə müvafiq olaraq standartlaşdırma, metrologiya, sertifikatlaşdırma, akkreditasiya və sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahələrində təkmilləşmə, müasir beynəlxalq təcrübənin tətbiqi istiqamətində işlər davam etdirilir.

Bu barədə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində 2015-ci ilin yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclasında danışılmışdır.

Komitə sədri Bəxtiyar İsmayılov bildirmişdir ki, təhsil, o cümlədən məktəbəqədər təhsil müəssisələrinin yeməkxanalarına alınan ərzağın keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması və onların yerli məhsullarla təminatına diqqətin artırılması məqsədilə 96 təhsil müəssisəsinin bufet və yeməkxanalarında 357 halda müşahidə xarakterli nəzarət tədbirləri təmin olunmuş, 73 təhsil müəssisəsinin bufetində 16 istiqamət üzrə 315 halda nöqsan aşkar olunaraq aradan qaldırılmışdır.

Qeyd olunmuşdur ki, 104 ictimai iaşə obyektində monitorinqlər aparılmış, 26 istiqamət üzrə 697 halda çatışmazlıqlar müəyyənləşdirilərək aradan qaldırılması üçün vaxt verilmişdir. 57 ictimai iaşə obyektində aparılmış təkrar araşdırma zamanı 23 istiqamət üzrə 261 halda nöqsanların aradan qaldırıldığı müəyyən edilmiş, digər nöqsanlar üzrə hazırda nəzarət tədbirləri aparılmaqdadır.

Diqqətə çatdırılmışdır ki, aparılmış monitorinqlər zamanı standartların tələblərinə uyğun olmayan 51781,14 manat dəyərində yararlılıq müddəti bitmiş, keyfiyyətsiz, kontrafakt məhsul satışdan çıxarılaraq götürülmüş və ya satışdan çıxarılmışdır ki, bunlardan 43204,98 manat dəyərində məhsul məhv edilmiş, 6174,70 manat dəyərində ərzaq məhsulu biotexniki tədbirlərdə istifadə üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təhvil verilmiş, 1900,10 manat dəyərində məhsul idxalçı müəssisəyə geri qaytarılmış, 501,36 manat dəyərində məhsulun isə yerində satışına qadağa qoyulmuşdur.

“2015-2016-cı illərin payız-qış mövsümünə hazırlığın vəziyyəti ilə bağlı 2015-ci il avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə aidiyyəti orqanların nümayəndələri ilə birgə 78 təsərrüfat subyektində 192 halda monitorinqlər aparılmışdır”, – deyən komitə sədri bildirmişdir ki, təhlükəsizlik sistemi olmadığından 5 ədəd mətbəx üçün qaz pilətəsi, sənaye üsulu ilə hazırlanmayan 6 ədəd qaz sobası və 91 ədəd qaz başlığı satışdan çıxarılaraq götürülmüşdür. Metrologiya xidməti üzrə 1273 təsərrüfat subyektinə məxsus 36807 ədəd ölçmə vasitəsinin yoxlanılması təmin olunmuşdur. 4649 ədəd ölçmə vasitəsinə metroloji nəzarət həyata keçirilmişdir.

Sonra çıxışlar olmuşdur.



*Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində 2015-ci ilin yekunlarına və qarşıya qoyulmuş vəzifələrin icrasına həsr olunmuş müşavirə keçirilib.*

Müşavirəni xidmətin rəisi, general-mayor Səxavət Salmanov açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 2015-ci ildə çağırış kampaniyalarının keçirilməsi ilə bağlı nəzərdə tutulmuş plan və tapşırıqları tam həcmdə yerinə yetirib.

Qeyd olunub ki, 2015-ci ildə çağırışaqədər gənclərin ilkin qeydiyyata alınması tədbirləri də qarşıda duran əsas vəzifələrdən olub. Bu sahədə iş uğurla aparılıb. Bundan əlavə, çağırışaqədər gənclərin peşəyönümlü məktəblərə göndərilməsi də diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu il 349 nəfər gənc sürücülük məktəbinə cəlb olunub, tam kursu bitirdikdən sonra sürücülük vəsiqələri ilə təmin edilərək hərbi hissələrə göndəriliblər.

Naxçıvan Muxtar Respublikasında məktəblilər arasında hərbi-idman oyunlarının keçirilməsinin diqqət mərkəzində saxlanıldığını deyən xidmət rəisi bildirib ki, “Cəsurlar”, “Şahin” hərbi-idman oyunları Naxçıvan Muxtar Respublikasının Təhsil, Gənclər və İdman nazirliklərinin birgə iş planı əsasında təşkil edilib. Bununla yanaşı, 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi hissələrin, eləcə də qanunla müəyyən edilmiş digər silahlı birləşmələrin müddətdən artıq hərbi qulluqçular, zabitlərlə komplektləşdirilməsi işi davam etdirilib. İl ərzində ehtiyatdan çağırılaraq 19 nəfər zabit 1 il 6 ay müddətinə və 7 nəfər 5 il müddətinə həqiqi hərbi xidmət keçmək üçün göndərilib, 10 nəfər zabit və 3 nəfər gizir hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində, 9 nəfər zabit və 4 nəfər gizir isə Azərbaycan Respublikası Silahlı Qüvvələrində və qanunvericiliyə uyğun olaraq yaradılmış digər birləşmələrdə xidmət edirlər.

Səxavət Salmanov işdə buraxılmış nöqsanlara da toxunub, onların qısa müddətdə aradan qaldırılmasının vacibliyini bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik Elxan Əliyevin, Şərur Rayon İdarəsinin rəisi, polkovnik-leytenant Nurlan Cəfərovun, Ordubad Rayon Şöbəsinin rəisi, mayor Vüqar Rəhimlinin və Sədərək Rayon Şöbəsinin rəisi, mayor Cavid Məmmədovun çıxışları olub.

* * *

***Dekabrın 28-də Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində kollegiya iclası keçirilmişdir.***



2015-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda çıxış edən nəqliyyat naziri Mirsənani Seyidov muxtar respublikada yol-nəqliyyat infrastrukturunun müasir standartlar səviyyəsinə çatdırılmasının cari ildə də diqqət mərkəzində saxlanıldığını bildirmişdir. Qeyd edilmişdir ki, “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”a uyğun olaraq, Naxçıvan şəhərdaxili nəqliyyatında sərnişindaşıma xidmətinin səviyyəsinin yüksəldilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilmiş, muxtar respublikamıza 7 ədəd yüksək komfortlu yeni avtobus gətirilmiş, Naxçıvan şəhərdaxili nəqliyyatında sərnişindaşıma fəaliyyəti göstərən beynəlxalq standartlara uyğun avtobusların sayı 58-ə çatdırılmışdır. Muxtar respublikada 138 marşrut xəttində 303 ədəd avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmiş, sərhəd kəndlərinə və ucqar dağ kəndlərinə işləyən marşrut avtobuslarının hərəkətinə nəzarət artırılmışdır. Muxtar respublikada 489 ədəd taksi əhaliyə nümunəvi nəqliyyat xidməti göstərir. Cari ildə 199 nəfər fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilmiş, 404 avtonəqliyyat vasitəsinə lisenziya kartları verilmişdir.

Vurğulanmışdır ki, Naxçıvandan Bakı şəhərinə işləyən avtobus marşrutunun fəaliyyəti daim diqqət mərkəzində saxlanılır. Bu marşrutda sərnişinlərə xidmətin səviyyəsinin yüksəldilməsi üçün 4 ədəd yeni avtobus alınmışdır. Ötən il ərzində bu marşrut üzrə Naxçıvandan Bakıya 45942 nəfər, Bakıdan Naxçıvana isə 45703 nəfər sərnişin daşınmışdır.

Sonra “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mahir Əliyev çıxış edərək cari il ərzində dəmir yolu sahəsində görülən işlərdən danışmış, 88 min 917 ton yük və 131 min 535 nəfər sərnişin daşındığını bildirmişdir. Müvafiq olaraq yükdaşımadan 150 min 314 manat, sərnişin daşınmasından isə 19629 manat gəlir əldə edilmişdir.

“Naxavtoyol” Dövlət Şirkətinin baş direktoru Bəhruz Əsgərov çıxışında 2015-ci ildə 1473 kilometr uzunluğunda respublika və yerli əhəmiyyətli avtomobil yollarında təmir, istismar və yenidənqurma işlərinin aparıldığını, yolların saxlanması və istismarına 1 milyon 83 min manat vəsait xərcləndiyini bildirmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli son illər ərzində Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində bir sıra işlərin həyata keçirildiyini, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması, uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə yeni “Şərq Terminalı”nın, Şərur və Ordubad şəhərlərində isə aviakassa binalarının istifadəyə verildiyini bildirmişdir.

Qeyd edilmişdir ki, ötən müddət ərzində Naxçıvan-Bakı marşrutu üzrə 234 min 526 nəfər sərnişin, 3 milyon 885 min 471 kq baqaj, 770 min 557 kq yük və 24 min 391 kq poçt daşınmışdır. Beynəlxalq hava xətti ilə Naxçıvan-Moskva reysi ilə 3 min 149 nəfər, Naxçıvan-İstanbul reysi ilə 5 min 987 nəfər sərnişin daşınmışdır.

İclasa nəqliyyat naziri Mirsənani Seyidov yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikada torpaq və əmlak məsələlərinin həllində yüksək nəticələrə nail olunmuşdur



***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində 2015-ci ilin yekunları ilə bağlı kollegiya iclası keçirilib. İclası komitənin sədri Müslüm Cabbarzadə açaraq məruzə ilə çıxış edib.***

Qeyd olunub ki, 2015-ci ildə komitə tərəfindən 415 girov qeydi aparılıb, əmlakın yüklülüyünə dair 3588 arayış verilib. 3157-si torpaq sahəsi, 3-ü çoxmərtəbəli yaşayış binası, 45-i qeyri-yaşayış binası, 68-i qeyri-yaşayış sahəsi, 981-i mənzil, 1710-u fərdi yaşayış evi, 12-si əmlak kompleksi kimi müəssisə olmaqla, 5976 daşınmaz əmlak obyekti qeydiyyata alınıb, 85 kənddə səyyar xidmət göstərilməklə, 1502 əmlakla bağlı müraciətlərə baxılıb, müvafiq sənədlər hazırlanaraq hüquq sahiblərinə təqdim olunub. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin rəsmi internet saytında xüsusi “elektron xidmətlər” bölməsi yaradılıb, bölmədə hər bir xidmətin reqlamenti, aid ərizə və blank formaları yerləşdirilib. Komitənin fəaliyyət istiqamətləri üzrə 21 növ elektron xidmət elektron hökumət portalına inteqrasiya olunaraq hüquqi və fiziki şəxslərin istifadəsinə verilib, elektron xidmətlərə görə nəzərdə tutulan dövlət rüsumlarının real vaxt rejimində nağdsız ödənilməsi təmin edilib.

Kənd təsərrüfatında məhsuldarlığın intensiv amillər hesabına artırılmasından danışan komitə sədri bildirib ki, müasir irriqasiya sistemlərinin, kollektor-drenaj şəbəkələrinin və nasos stansiyalarının, yeni suvarma boru xətlərinin istifadəyə verilməsi nəticəsində “Kənd təsərrüfatı ili”ndə muxtar respublikada 6 min hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib. Ancaq bununla yanaşı, aparılan yoxlamalar zamanı muxtar respublikanın şəhər və rayonlarında torpaq qanunvericiliyinin tələblərinin pozulması hallarına da rast gəlinib. Hazırda komitə tərəfindən torpaqlardan istifadəyə dövlət nəzarətinin artırılması istiqamətində işlər davam etdirilir.

Sonra məruzə ətrafında çıxışlar olub.

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2015-ci ilə uğurla yekun vurur

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində 2015-ci ilin yekunları ilə bağlı keçirilən kollegiya iclasında komitənin sədri Ramilə Seyidova hesabat məruzəsi ilə çıxış edərək bildirmişdir ki, bu il muxtar respublikada yaşayan ailələr, qadınlar və uşaqlar haqqında məlumat bazası yenilənmiş, göstəricilər geniş təhlil edilmişdir. Qadınların sağlamlıqlarının qorunması, ailə dəyərlərinin, ailələrdə sağlam həyat tərzinin, milli dəyərlərin təbliği, erkən və qanqohumluğu nikahlarının fəsadlarının uşaq və gənclərə aşılanması məqsədilə kənd mərkəzlərində və ümumtəhsil müəssisələrində 33 dəfə maarifləndirici tədbir keçirilmiş, 6000-ə yaxın broşür tədbir iştirakçılarına paylanılmışdır. Ailə dəyərlərimizin qorunması, uşaq və gənclərə aşılanması məqsədilə uzunömürlü və nümunəvi ailələrin yubileyləri qeyd olunmuş, uzunömürlü ailələrlə gənclərin görüşü keçirilmiş, rəsm, şeir və əl işləri müsabiqələri təşkil olunmuşdur. Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Sarayında “Muxtar respublika qadınları müstəqillik illərində” mövzusunda sərgi təşkil olunmuşdur. Hesabat dövründə sərgi-satışlarda və əl işləri mağazalarında 150-dən artıq istedadlı qadının 544 rəsm və əl işi satılaraq dəyəri qadınlara ödənilmişdir.



Komitə sədri qeyd etmişdir ki, “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın müvafiq bəndlərinin icrası ilə əlaqədar proqramın qəbulundan bu günədək muxtar respublikada yaşayan sağlamlıq imkanları məhdud 1631 nəfər və aztəminatlı ailənin üzvü olan 1383 nəfər qadınla əlaqə saxlanılaraq müvafiq söhbətlər aparılmışdır. Qadınların maraqları nəzərə alınaraq müvafiq peşə kurslarına cəlb olunmaları ilə bağlı 99 nəfər qadının siyahısı və komitəyə məşğulluq probleminin aradan qaldırılması ilə bağlı müraciət etmiş 90 nəfər əmək qabiliyyətli vətəndaş işlə təmin olunması üçün aid təşkilatlara göndərilmişdir. Həmçinin “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın müvafiq bəndinin icrası ilə əlaqədar bu günədək 2780 sağlamlıq imkanları məhdud uşaqların valideynləri ilə əlaqə yaradılmış, 311 uşaq potensiallarına uyğun olaraq məktəbəqədər, məktəb və məktəbdənkənar təlim-tərbiyə, müalicə və reabilitasiya müəssisələrinə yönləndirilmiş, məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyə işinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə müəllim, metodist və tərbiyəçilərin iştirakı ilə 7 dəfə kurs təşkil edilmişdir.

İclasda qeyd olunmuşdur ki, hesabat dövrü ərzində hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 8 uşağın uçotu və övladlığa götürülmüş 13 uşağın ümumi uçotu aparılmış, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 5 uşağın yaşadığı evlərdə monitorinqlər təşkil edilmişdir.

İclasda komitənin aparat rəhbəri Zeynal Hümbətov, şöbə müdirləri Sahir Rüstəmov və Rəşad Kərimov çıxış etmişlər.

## Enerji təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində 2015-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir.*

İclası giriş sözü ilə agentliyin baş direktoru Yasin Səfərov açaraq bildirmişdir ki, bu il gücü 20 meqavat olan Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Abonentlərin fasiləsiz elektrik enerjisi ilə təmin olunması ilə əlaqədar həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər cari ildə də davam etdirilmiş, Kəngərli rayonu ərazisində 35 meqavolt-amper güclü 110/35/10 kilovoltluq yeni müasir avadanlıqlar qoyulmuş “Qıvraq” yarımstansiyası tikilib istismara verilmişdir. Mövcud yüksəkgərginlikli elektrik verilişi xətlərinin Qıvraq qəsəbəsindəki yaşayış evlərinin üzərindən çıxarılması üçün 7 kilometr uzunluqlu 110 kilovoltluq, 2 kilometr uzunluqlu 35 kilovoltluq, 11 kilometr uzunluqlu 10 kilovoltluq elektrik verilişi xətləri çəkilmişdir.

Babək rayonu ərazisində yeni 35/10 kilovoltluq 1260 kilovolt-amper güclü müasir avadanlıqlar qoyulmuş “Nehrəm” transformator yarımstansiyası, Kəngərli rayonu ərazisində 35/6 kilovoltluq 6300 kilovolt-amper güclü yeni “Qıvraq nasos” transformator yarımstansiyası tikilib quraşdırılmış və istismara verilmişdir.



Vurğulanmışdır ki, 2015-ci ildə muxtar respublikanın şəhər və kəndlərində, ümumilikdə, 44 ədəd yeni transformator yarımstansiyası qoyulmuş, 84 kilometr uzunluqlu yeni 10 və 0,4 kilovoltluq elektrik verilişi xətləri çəkilmiş, 7,5 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətləri kabel xətləri ilə əvəz edilmişdir.

Bu il Naxçıvan şəhərində vətəndaşların evlərində smartkarttipli ön ödənişli elektron sayğacların qoyulmasına başlanılmış, indiyə qədər 9000 ədəd belə sayğac qoyulmuşdur.

Sonra Biləv Su Elektrik Stansiyasının direktoru Sahib Zeynalov, Ordubad Rayon Elektrik Şəbəkəsinin direktoru Ramazan Rzayev, Naxçıvan Modul Elektrik Stansiyasının direktoru Məhərrəm Abbasov, Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin direktoru İqrar Əliyev görülmüş işlər və qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər haqqında məlumat vermişlər.

**Xəbərlər şöbəsi**

## Basketbol üzrə muxtar respublika çempionatı başa çatıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdikləri kişilər arasında basketbol üzrə muxtar respublika çempionatına yekun vurulub.

Çempionatın keçirilməsində əsas məqsəd muxtar respublikada basketbol idman növünü daha geniş inkişaf etdirmək, müasir basketbol sisteminə keçmək və basketbol üzrə yığma komandanı müəyyən edib Azərbaycan çempionatında iştirakına nail olmaq idi. Çempionat iki dövrədən ibarət olub. İlk dövrəyə mart ayında start verilib və iyunun 8-də yekun vurulub. Çempionatın ikinci dövrəsi isə 27 sentyabr-26 dekabr tarixləri arasında keçirilib.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən çempionatın final qarşılaşmasında “Naxçıvan” və “Ordubad” komandaları üz-üzə gəlib. Gərgin idman mübarizəsi şəraitində keçən görüş “Naxçıvan” komandasının qələbəsi ilə yekunlaşıb – 87:50. Bununla, onlar ilk dəfə keçirilən kişilər arasında basketbol üzrə muxtar respublika çempionatını qalib kimi başa vurublar. “Culfa” komandası isə çempionatı üçüncü pillədə başa vurub.

Sonda hər üç komandaya Gənclər və İdman Nazirliyinin diplomları, federasiyanın isə kubok və hədiyyələri təqdim olunub.

## Cüdo birinciliyi

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə yeniyetmələr (2004-2006-cı illər) arasında cüdo üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkil etdiyi birincilikdə 8 çəki dərəcəsi üzrə 50-yə yaxın idmançı iştirak edib. Yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov qarşıdan gələn bayramlar münasibətilə idmançıları təbrik edib, onlara uğurlar arzulayıb.

Yarışın yekun nəticəsinə əsasən, Nizami Məmmədli (27 kq), Həmzə Rəhimli (30 kq), Sənan Cəfərov (34 kq), Fuad Gözəlov (38 kq), Fuad Əşrəfli (42 kq), Rüfət Zeynalov (46 kq), İsmayıl Abbaslı (50 kq) və Əlişan Rəhimli (54 kq) bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüblər.

Sonda müvafiq çəki dərəcələrində yer tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## İdmançımız Azərbaycan çempionatının mükafatçısı olub

Bakı şəhərində fəaliyyət göstərən “Sərhədçi” Olimpiya-İdman Mərkəzində böyüklər arasında taekvando üzrə Azərbaycan çempionatına yekun vurulub. Azərbaycan Taekvando Federasiyası ilə Gənclər və İdman Nazirliyinin birgə təşkil etdiyi çempionatda paytaxtda və bölgələrdə fəaliyyət göstərən komandaların idmançıları mübarizə aparıblar. Üç gün davam edən turnirdə səkkiz çəki dərəcəsi üzrə kişi və qadın taekvandoçular yarışıblar. Ölkə birinciliyində Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi də iştirak edib. Məşqçi-müəllim Fərid Tağızadənin rəhbərliyi ilə paytaxta yollanan idmançımız Elman Əliyev tatamiyə 87+ kiloqram çəki dərəcəsində çıxıb. O, finala kimi bütün rəqiblərinə qalib gələrək həlledici qarşılaşmada Mərkəzi Ordu İdman Klubunun idmançısı Ceyhun Həsənli ilə üz-üzə gəlib. Bu görüşdə məğlub olan idmançımız Azərbaycan çempionatının ikinci pillədə başa vurub.

Sonda idmançımıza təşkilatçılar tərəfindən diplom və medal təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

*Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası, onların cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının mənalı təşkili məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.*

## Sağlamlıq imkanları məhdud uşaqlar üçün Yeni il şənliyi

Dünən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində keçirilən Yeni il şənliyi bu tədbirlərin davamı idi. Bayram tədbirində Naxçıvan Uşaq Bərpa Mərkəzində müalicə alan və Regional İnformasiya Mərkəzində tədrisə cəlb edilən sağlamlıq imkanları məhdud 30 uşaq iştirak edib.

Tədbirdə M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorları tamaşalardan səhnələr göstərib və mahnılar ifa ediblər. Şənlikdə iştirak edən Şaxta baba, Qar qız uşaqları əyləndiriblər. Uşaqlar rəqs edib, mahnılar oxuyublar.

Sonda uşaqlara bayram hədiyyələri təqdim edilib.

Sağlamlıq imkanları məhdud uşaqların valideynləri göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Naxçıvan şəhəri, A.Cəlilov küçəsi, bina 1, mənzil 41-də yaşayan Həsənov Elmin Hüseyn oğlunun adına olan 8279 inventar nömrəli texniki pasport və MH-0038384 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 963